“KH.J.A Audit-Consultinq Xidməti”MMC

“Asel Kredit ”BOKT MMC-NİN 31.12.2025-Ci İL TARİXƏ MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

Bakı -2026

MÜNDƏRİCAT

31 DEKABR 2025-ci İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ

DAİR HESABAT 1

MÜSTƏQİL AUDİTORUN HESABATI 2-3

MALİYYƏ VƏZİYYƏTİ HAQQINA HESABAT 4

MƏNFƏƏT VƏ ZƏRƏR HAQQINDA HESABAT 5

KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT 6

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT 7

MALİYYƏ HESABATLARINA ŞƏRHLƏR VƏ QEYDLƏR 8

1. Giriş 8

2. Cəmiyyətin əməliyyat mühiti 9

3. Uçot siyasətinin təqdimatı 9

4. Maliyyə risklərinin faktorları 18

5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri 20

6 Yeni və ya yenidənişlənmiş standartların qəbulu və şərhi 21

7. Torpaq, tikili və avaanlıqlar 22

8 Qeyri madi aktivlər 23

9. Xalis Faiz gəlirləri 23

10. Debitor borcları 24

11. Sair qısamüddətli aktivlər 24

12.Digər aktivlər 25

13. Pul vəsaitləri və onların ekvivalentləri 25

14. Vergi və məcburi ödənişlər üzrə öhdəliklər 25

15 Qısamüddətli kreditor borcları 26

16. Sair kreditor borcları alınmış avanslar 26

17. İnzibati xərclər 26

18. müştərilərə verilmiş kreditlər 27

19. Digər borc alınmış vəsaitlər 27

20. Səhmdar kapitalı 27

21. Mənfəət vergisi 27

22. Risklərin idarə olunması 28

23. Hesabat tarixindən sonra baş vermiş hadisələr 29

"KH.J.A AUDİT-CONSULTİNQ XİDMƏTİ" MMC

Baku, Azerbaijan, Babak ave. 95, apt. 122; mobile: (+99450) 394-66-02
xaladdin-aliyev@mail.ru VÖEN;1604961411

"Asel Kredit" BOKT Məhdud Məsuliyyətli Cəmiyyətinin rəhbərliyinə Müstəqil auditorun hesabatı

Rəy

eP3bHUqgch

Mən "Asel Kredit" BOKT MMC-nin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apardım.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

Rəy üçün əsaslar

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və digər etik öhdəliklərimi bu tələblərə uyğun olaraq yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının təqdim edilməsi prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti

Mənim məqsədim maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını tərtib etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkar edir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi mən audit aparılan zaman peşəkar mühakimə tətbiq edir və peşəkar şəffaflıq nümayiş etdirirəm. Mən həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçirirəm və rəyimi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirəm. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürəm.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqiliyini qiymətləndirirəm.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarıram. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığım halda, auditor hesabatımda maliyyə hesabatlarmdakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyəm və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimə dəyişiklik etməliyəm. Nəticələrin auditor hesabatımın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır.

Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndirirəm.

Mən Idarə Heyətinin sədrinə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrəm.

Mən həmçinin Idarə Heyətinin sədrinə bəyanat verirəm ki, müstəqilliyə və müstəqilliyimə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimə dair müvafiq etik normalarına riayət etmişəm.

Idarə Heyətinin sədrinin nəzərinə çatdırılmış məsələlərdən mən cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirəm. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməmənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandınlmş şəkildə güman edildiyinə görə mən bu məsələ haqqında hesabatımda məlumatın verilməməsini qərara almadığım halda, mən bu məsələləri auditor hesabatımda təsvir edirəm.

Hesabat 25.05.2026-cı il tarixdə eyni qüvvəyə malik iki nüsxədə tərtib edilmişdir. Bunlardan biri **"Asel Kredit"BOKT MMC –nin** rəhbərliyinə təqdim edilir, ikincisi isə auditorda saxlanılır.

"KH.J.A Audit-Consulting Xidməti"
MMC-nin direktor-auditoru: **X.C.Əliyev**

25 may 2026-cı il

MY:

"Asel Kredit" BOKT MMC

MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

31 Dekabr 2025-ci il tarixinə

Azərbaycan manatı ilə

	Qeyd	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
AKTİVLƏR			
Banklarda yerləşdirilmiş müddətli depozitlər	13	427660,00	299621,00
Banklarda yerləşdirilmiş müddətli depozitlər	13	1700000,00	1700000,00
Cəmi kreditlər		15600450,00	4176003,00
Kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat		-1137270,0	0,0
Kreditlərin xalis dəyəri (3-cü sətir-4-cü sətir)	17	14463180,00	4176003,00
Təxirə salınmış vergi öhdəlikləri			0,0
Uzunmüddətli investisiyalar			0,0
Əsas vəsaitlər (amortizasiya çıxılmaqla)	7	819220,00	506199,00
Qeyri-maddi aktivlər	8	282220,00	332206,00
Digər aktivlər	12	0,00	2531570,00
Əvvəlcədən ödənilmiş vergilər	12	117460,00	42691,00
Debitor borcları	12	1600,00	
Hesablanmış alınası faizlər	12	520190,0	916192,00
Digər aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün yaradılan xüsusi ehtiyat	12	-154250,0	
Sair digər aktivlər	11	671140,00	117250,00
Verilmiş avanslar üzrə	10	360490,00	387201,00
CƏMİ AKTİVLƏR		**19208910,00**	**11008933,00**
KAPİTAL VƏ ÖHDƏLİKLƏR			
Nizamnamə kapitalı	1	6200000,0	3000000,0
Keçmiş illərin qrantları (artan yekunla)			0,0
Cari ilin xalis mənfəəti/zərəri	20	-3371400,0	0,0
Keçmiş illərin bölüşdürülməmiş mənfəəti(zərəri) (artan yekunla)	20	128390,00	734540,00
Bölüşdürülməmiş mənfəət	10	0,00	157693,00
CƏMİ KAPİTAL		**2956990,00**	**3992233,00**
Uzunmüddətli öhdəliklər			
Uzunmüddətli kreditlər və borclar üzrə hesablasmalar bankların krediti	18	14168280.00	4821540.00
Uzunmüddətli kreditlər və borclar üzrə hesablanmış faizlər		0,0	0,0
Cəmi uzunmüddətli öhdəliklər	18	**14168280,00**	**4821540,00**
Qısamüddətli öhdəliklər			
Digər maliyyə institutlarının (banklardan başqa) kreditləri	18	161920,00	0,00
kreditor borcları	15	295230,0	0,0
Hesablanmış ödəniləsi faiz və dividendlər	15	55240,0	55240,0
Təxirə salınmış gəlirlər	15	256360,0	
Vergi və sair ödəmələr üzrə öhdəliklər	14	28510,0	0,0
Sair digər öhdəliklər	15	1286380,0	2195160,00
Cəmi qısamüddətli öhdəliklər		**2083640,00**	**2195160,00**
CƏMİ ÖHDƏLİKLƏR		**16251920,00**	**7016700,00**
CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR		**19208910,00**	**11008933,00**

31 dekabr 2025-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır

Behbidov.P. F

"Asel Kredit"BOKT MMC-nin Baş direktor

Nağıyev.R.C

Baş mühasib

Şərhlər və Qeydlər hazırkı Maliyyə Hesabatlarının tərkib hissəsidir

"Asel Kredit"BOKT MMC

MƏNFƏƏT VƏ ZƏRƏRLƏR HAQQINDA HESABAT
31 Dekabr 2025-ci il tarixinə

Gəlir və xərc maddələri	Qeyd	31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Verilmiş kreditlərdən daxil olan gəlir,cəmi;	9	**4000030,00**	**2767385,65**
O cümlədən; a)verilmiş kreditlər üzrə b)verilmiş kreditlərdən daxil olan komisyon haqları üzrə	9	4000030,00 4785630,00	2767385,65 2104540,00
Maliyyə xərci cəmi;			**0**
O cümlədən; a)investisiyar üzrə maliyyə gəliri b) valyuta məzənnəsinin dəyişməsindən yaranan müsbət	9	0,00	0,00
Əməliyyat gəlirinin cəmi	9	**8785660,00**	**4871925,05**
Faiz xərcləricəmi;	9	**(1671470,00)**	**(527720,00)**
O,cümlədən a)Cəlb edilmiş borclar və kreditlər üzrə b)vaxtı keçmiş kreditlər üzrə ehtiyatlara ayırmalar c)digər maliyyə xərcləri	16	(1291520,00) 0,00	(1651140,00) 0,00
digər qeyri-faiz gəlirləri			
Qeyri faiz xərcləri	16	(9194070,00)	(2386760,00)
Əməliyyat mənfəəti	20	**(3371400,00)**	**306305,05**
Mənfəət vergisindən əvvəl gəlir/zərər	20	**(3371400,00)**	**306305,05**
Mənfəət vergisi xərci	20	0,00	(48610,00)
Gəlirdən çıxılmayan xərclər			
İl üzrə xalis mənfəət/zərər	20	**(3371400,00)**	**257695,65**
İl üzrə cəmi məcmu gəlir			

31 dekabr2025-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

Behbidov.P. F
"Asel Kredit"BOKT MMC-nin Baş direktoru

Nağıyev.R.C
Baş mühasib

Şərhlər və Qeydlər hazırkı Maliyyə Hesabatlarının tərkib hissəsidir

"Asel Kredit"BOKT MMC
KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
31 Dekabr 2025-ci il tarixinə

Azərbaycan manatı ilə

	Qeyd	Nizamnamə Kapitalı	Bölüşdürül-məmiş mənfəət	Cəmi Kapital
31 dekabr 2023-cü il tarixə qalıq	**1**	**3000000,00**	**734537,06**	**3734537,06**
2024-cü il üzrə xalis mənfəət	20		257695,65	**257695,65**
Mülkiyyətçilərin kapital qoyuluşları				
Elan edilmiş dividendlər				
Maddələr arasında köçürmələr	20			
31 dekabr 2024-cü il tarixə	**1**	**3000000,00**	**992232,91**	**3992232,91**
2025-ci il üzrə xalis mənfəət	20		(3371400,00)	**(3371400,00)**
Mülkiyyətçilərin kapital	1	3200000,00		**3200000,00**
Elan edilmiş dividendlər				
Sair	20		-863842,91	**-863842,91**
31 dekabr 2025-ci il tarixə		**6200000,00**	**-3243010,00**	**2956990,00**

31 dekabr 2025-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

Behbudov.P. E
"Asel Kredit"BOKT MMC-nin İ Baş direktor

Nağıyev.R.C
Baş mühasib

Şərhlər və Qeydlər hazırkı Maliyyə Hesabatlarının tərkib hissəsidir

"Asel Kredit"BOKT MMC

PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
31 Dekabr 2025-ci il tarixinə

	Qeyd	Azərbaycan manatı ilə 31 dekabr 2025-ci il	31 dekabr 2024-cü il
Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Hesabat dövründə xalis mənfəət /zərər	20	(3371400,00)	306305,05
Mənfəət vergisi üzrə xərclər			
Qeyri-pul maddələri üzrə gəlirlər və xərclər:			
Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri üçün ehtiyat,bərpa dəyəri çıxılmaqla			
Əmlak,avadanlıq və qeyri-maddi aktivlərin silinməsindən gəlirlər/zərərlər			
Xarici valyuta əməliyyatları üzrə xalis zərər/mənfəət			
Mənfəətvə ya zərər hesabatlarında ədalətli dəyərlə qeyd edilən maliyyə aktivləri və öhdəliklərin ədalətli dəyərində xalis dəyişiklik			
Komosiyon haqqı və cərimələrdən gəlirlər			
köhnəlmə və amortizasiya	7	222080,00	84836,93
Mənfəət və ya zərər hesabatlarında tanınmış mənfəət vergisi xərci	20	0,00	(48610,00)
Əməlyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri			
Əməlyyat aktiv və öhdəliklərində dəyişikliklər			0,00
Əməliyyat aktivlərndə artma/azalma	12		0,00
Banklardakı müddətli depozitlər			
Müştərilərə verilmiş kreditlər	18	(10287177,00)	(746345,32)
Digər aktivlər	11,12	2478274,00	(731744,08)
Əməliyyat öhdəliklərində azalma/artma	15	(328680,00)	1942012,89
Digər öhdəliklər	15		
Vergi və faizdən əvvəl əməliyyat fəaliyyətləri üzrə istifadə olunan pul vəsaitləri			
Əməliyyat kreditor borcları və hesablaşmalar			
Sair	19	(831530,98)	(247427,34)
Ödənilmiş mənfəət vergisi			
Əməliyyat fəaliyyətindən yaranan pul vəsaitlərinin		**(12118433,98)**	**559028,13**
İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin hərəkəti			
Əmlak və avadanlıq üzrə ödəniş	7	(462187,02)	(169428,52)
Əmlak,avadanlıq və qeyri-maddi aktivlərin satılmasından daxilolmalar			
Qeyri maddi aktivlər üzrə ödənişlər	7		(200271,32)
İnvestisiya fəaliyyətindən yaranan pul vəsaitlərinin xalis hərəkəti		**(462187,02)**	**(369699,84)**
Məzənnə fərqi			
Maliyyələşdirmə üzrə fəaliyyətdən pul vəsaitlərinin			
Borc şəklində alınmış məbləğlərdən yaranan pul vəsaitlərinin daxilolmaları	18	9346740,00	1545215,05
Borc şəklində alınmış məbləğlərin geri qaytarılmasına yaranan pul vəsaitlərinin xaricolmaları			
Digər maliyyə institutlarından alınmış kreditlər	18	161920,00	0,00

Dividendlər və buna oxşar digər ödəmələr şəklində pul vəsaitlərinin xaricolmaları	18		
Əlavə ödənilmiş nizamnamə kapitalı	1	3200000,00	
Maliyyələşdirmə üzrə fəaliyyətdən yaranan pul vəsaitlərinin xalis hərəkəti		**12708660,00**	**1545215,05**
Pul vəsaitləri və onların ekvivalentlərinin xalis artması (azalması)	13	**128039,00**	**1734543,34**
İlin əvvəlinə pul vəsaitləri və bank overdraftları	13	**1999621,00**	**265077,66**
İlin sonuna pul vəsaitləri və bank overdraftları	13	**2127660,00**	**1999621,00**
İl ərzində artım/azalma	13	**128039,00**	**1734543,34**

31 dekabr 2025-ci il tarixində Cəmiyyət tərəfindən təsdiqlənmiş və onun adından imzalanmışdır.

Behbidov.P. F
"Asel Kredit"BOKT MMC-nin Baş direktor

Nağıyev.R.C
Baş mühasib

"Asel Kredit " Bank Olmayan Kredit Təşkilatı Məhdud Məsuliyyətli Cəmiyəti

31 dekabr 2025-ci il tarixə Uçot Siyasəti və Digər İzahedici Qeydlərin Qısa Xülasəsi

1. Giriş

Hazırkı maliyyə hesabatları 31 dekabr 2025-ci ildə tamamlanan il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq **"Asel Kredit" BOKT MMC** üçün tərtib edilmişdir. Cəmiyyət Azərbaycan Respublikasında təsis edilmiş və bu ölkədə fəaliyyət göstərir. Cəmiyyət Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmışdır.

1.1. Cəmiyyət haqqında ümumi məlumat

Cəmiyyət Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamentinin Kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı idarəsi tərəfindən 2011-ci il 07 qeydiyyata alınmış 1401929161 VÖEN verilmişdir.

Cəmiyyətin təsisçisinin 07 iyun 2018-ci il tarixli qərarına əsasəsən "Asel Kredit" Bank Olmayan Kredit Təşkilatı MMC-nin adı dəyişdirilərək "Asel-Kredit" Bank Olmayan Kredit Təşkilatı MMC kimi müəyyən edilmişdir.

Cəmiyyətin hüquqi ünvanı: Bakı şəhəri, Xətai rayonu ,8 noyabr ,ev 15, "AZURE"Biznes mərkəzi,m 40.

Cəmiyyətin Nizamnamə kapitalı 31 dekabr 2025-ci il tarixə 6200000,00 manat məbləğindədir.

Cəmiyyətin Nizamnamə kapitalında təsisçilərin əvvəlki payı aşağdakı kimi formalaşmışdır.

-Azərbaycan Respublikası vətəndaşı -Namazov Asəf Elxan oğlu iştirak payi – 1150000.00(bir milyon yüz əlli min) manat,1150 pay,38,33% ;

-Azərbaycan Respublikası vətəndaşı -Namazov Mahir Çingiz oğlu iştirak payi – 800000 .00(səkkiz yüz min) manat,800 pay,26,67% ;

-Ukrayna Respublikası vətəndaşı –Tsapla Maryna iştirak payi -1050000.00 (bir milyon əlli min) manat, 1050 pay,35% ;

Cəmiyyətin Nizamnamə kapitalında təsisçilərin 31 dekabr 2025-ci il tarixə hazırki payı aşağdakı kimi formalaşmışdır.

-Azərbaycan Respublikası vətəndaşı -Namazov Asəf Elxan oğlu iştirak payi – 4030000.00(dörd milyon otuz min) manat,4030 pay,65% ;

- -Ukrayna Respublikası vətəndaşı –Tsapla Maryna iştirak payi -2170000.00 (iki milyon yetmiş min) manat, 2170 pay,35% ;

Cəmiyyətin nizamnaməsində edilmiş dəyişikliklərə əsasən cəmiyyətin nizamnamə kapitalı 31 dekabr 2025-ci il tarixə 6200000,00 manat məbləğində müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Asel Kredit" Bank Olmayan Kredit Təşkilatı MMC 13 iyul 2018-ci il tarixində BKT-2 saylı lisenziyaların mərkəzi reyestrinə daxil edulmişdir.

"Asel Kredit" Bnak olmayan Kredit Təşkilatı MMC–nə təminatlı və təminatsız kreditlərin verilməsi,habelə " Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikası qanunda nəzərdə tutulmuş digər fəaliyyət növləri ilə qanunvericiliyə müvafiq qaydada məşğul olmaq hüququ verir.

"Asel Kredit" Bnak olmayan Kredit Təşkilatı MMC-nin girov əmanəti qəbul etmək hüququ yoxdur.

Cəmiyyətin hüquqi təmsilçisi Behbidov Pərviz Fikrət oğlu.

31 dekabr 2025-ci il tarixə Cəmiyyətin işçilərinin sayı müvafiq olaraq 172 nəfər olmuşdur.

1.3. Əməliyyat valyutası

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

2. Mühüm mühasibat uçotu siyasətləri

Hazırkı maliyyə hesabatlarındakı məbləğlər Azərbaycan manatı (AZN) ilə ifadə olunmuşdur.

2.Cəmiyyətin əməliyyat mühiti

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına xas olan xüsusiyyətlərə malikdir. Son illər ölkədə güclü iqtisadi artım müşahidə olunmuşdur. Lakin hal-hazırda dünya iqtisadiyyatında mövcud olan qlobal maliyyə böhranı Azərbaycana da öz təsirini göstərməkdədir. Kommersiya sektoruna təsir göstərə biləcək bütün tendensiyaları, eləcə də onların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini (əgər varsa) qabaqcadan proqnozlaşdırmaq mümkün deyil.

3. Uçot siyasətinin təqdimatı

Uçot siyasətinin bu maliyyə hesabatlarının tərtib edilməsində istifadə edilən əsas müddəaları aşağıdakı bəndlərdə göstərilmişdir. Əgər başqa açıqlamalarda istinad qeydləri edilməmişdirsə,

göstərilən uçot siyasəti müddəaları təqdim edilən bütün hesabat dövrlərində ardıcıl tətbiq edilmişdir.

3.1. Maliyyə hesabatlarının tərtib olunmasının ümumi əsasları

"Asel Kredit" Bnak Olmayan Kredit Təşkilatı MMC mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada aparır. Bu maliyyə hesabatları Azərbaycan Respublikasının mühasibat uçotu haqqında qanunvericiliyi əsasında hazırlanmış və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun tərtib edilmişdir. Bu düzəlişlərə əsas əməliyyatların iqtisadi mahiyyətini əks etdirən yenidən təsnifləşdirmələr, o cümlədən bəzi aktiv və öhdəliklərin yenidən təsnifləşdirilməsi daxildir. Bu maliyyə hesabatlarında aktivlər və öhdəliklər faktiki xərclər üzrə qiymətləndirilmişdir. Yenidən qiymətləndirmə aparılan və ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilən torpaq, binalar, satış üçün saxlanılan maliyyə aktivləri və maliyyə öhdəlikləri (törəmə alətlərdə daxil olmaqla) yenidən qiymətləndirilmişdir.

Maliyyə hesabatlarının (MHBS)-na uyğun tərtib edilməsi nəzərdə tutur ki, rəhbərlik əsas qiymət göstəricilərini müəyyənləşdirir. Rəhbərlikdən həmçinin tələb edilir ki, Cəmiyyətin uçot siyasətinin həyata keçirilməsi sahəsində peşəkar mülahizələr açıqlansın.

3.2. Valyutaların yenidən hesablanması

(a) Funksional valyuta və hesabat valyutası

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

(b) Əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüququdur. Monetar maddələr nağd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan məbləğləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.

Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərclər, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

Xarici valyuta məzənnələri

Cəmiyyət maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindən istifadə etmişdir:

	31 dekabr 2025	31 dekabr 2024
1.1ABŞ dolları	1.7000	1,7000
2.1 EURO	2.0022	1.7724

3.3. Torpaq, tikili və avadanlıqlar (Əsas vəsaitlər)

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə edilir;

(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən inzibati bina və ofis sahələri, istehsal sahələri və binaları, ticarət sahələri və binaları daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenidən qiymətləndirilməmişdir.

Ədalətli dəyər – yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindən asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidənqiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidən qiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binaların yenidən qiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki yenidən qiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidən qiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyat (rezerv) hesabından «Bölüşdürülməmiş mənfəət» hesabına keçirilir.

3.4. Əsas vəsaitlərin amortizasiyası

Torpaq üzrə amortizasiya ayırmaları hesablanmır.

Digər əsas vəsaitlər üzrə amortizasiya azalan qalıq dəyəri metoduna, yəni əsas vəsaitlərin faydalı istismar müddəti ərzində aşağıdakı illik amortizasiya dərəcələrini tətbiq etməklə, aktivlərin qalıq dəyərinə və ya yenidən qiymətləndirilmiş dəyərinə vurmaqla həyata keçirilir. Faydalı istismar müddəti və ya illik amortizasiya dərəcələri aşağıdakı qaydada müəyyən edilir:

– Binalar – 40 il və ya 7%

– Maşın avadanlığı – 5 il və ya illik 20%

– İT avadanlıqları – 5 il və ya illik 25%

– Nəqliyyat vasitələri – 5 il və ya illik 25%

– Mebel və təsərrüfat inventarları – 5 il və ya illik 20%

– Sair əsas vəsaitlər – 5 il və ya illik 20%

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.5. Qeyri-maddi aktivlər

Cəmiyyətin bütün qeyri-maddi aktivləri müəyyən faydalı xidmət müddətinə malik olmaqla əsasən kapitallaşdırılmış proqram təminatı və lisenziyalardan ibarətdir.

Əldə edilmiş proqram təminatı onların alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclərin əsasında kapitallaşdırılmışdır. Cəmiyyət tərəfindən nəzarət olunan identifikasiya oluna bilən unikal proqram təminatı ilə birbaşa əlaqəli olan tərtibat xərcləri, çəkilmiş xərclərdən artıq olan iqtisadi səmərə gətirəcəyi halda qeyri-maddi aktivlər kimi tanınır. Kapitallaşdırılmış xərclərə proqram təminatını tərtib edən şirkətlərə sərf edilən xərclər daxildir. Proqram təminatı ilə əlaqədar olan bütün digər xərclər (məsələn, texniki dəstək xərcləri) çəkildiyi zaman xərcə silinir. Kapitallaşdırılmış proqram təminatı onun 4-5 illik faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

Lisenziyalar hər hansı bir fəaliyyət növünə dövlət orqanları tərəfindən verilən xüsusi icazələr təşkil edir və verildiyi faydalı xidmət müddəti ərzində bərabər çıxılmalar metoduna əsasən amortizasiya olunur.

3.6. Aktivlərin qiymətdən düşməsi

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmamasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbğəlində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

(a) Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli dəyəri;

(b) İstifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünürlər.

3.7. İnvestisiyalar

Cəmiyyət özünün investisiyalarını aşağıdakı şəkildə təsnifləşdirir:

– Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri;

– Borc vəsaitləri və debitor borclar;

– İnvestisiyalar;

– Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri.

Təsnifləşdirmə investisiyaların hansı məqsədlə alınmasından asılıdır. Rəhbərlik investisiyaların təsnifləşdirilməsini onların ilkin tanınması zamanı müəyyən edir və hər bir hesabat tarixinə onları yenidən nəzərdən keçirir.

(a) Ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri

Bu kateqoriya iki alt kateqoriyaya bölünür: ticarət üçün nəzərdə tutulmuş maliyyə aktivləri ilə ilkin tanınmış ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər hesabında əks etdirilən maliyyə aktivləri. Maliyyə aktivləri bu kateqoriyaya o zaman aid edilir ki, onlar yaxın gələcəkdə satış üçün nəzərdə tutulmuşdur və onlar rəhbərlik tərəfindən belə ifadə edilmişdir. törəmə maliyyə alətləri deyildirlər. Əgər bu aktivlər satış üçün nəzərdə tutulmuşdursa və ya onların satılması balans hesabatı tarixindən bir ildən artıq olmayan müddətdə nəzərdə tutulmuşdursa, bu kateqoriyanın aktivləri qüsamüddətli aktivlər kimi təsnifləşdirilirlər.

(b) Borc vəsaitləri və debitor borcları

Borc vəsaitləri və debitor borcları təsbit edilmiş və ya müəyyən edilə bilən ödəmə müddəti olan və aktiv bazarda qiyməti təyin edilməyən (katirovka olunmayan) qeyri-törəmə maliyyə aktivləridir. Onlar o vaxt yaranırlar ki, Cəmiyyət debitor borclarının satılması niyyəti olmadan pul vəsaitlərini, malları və xidmətləri birbaşa debitora təqdim edir. Belə borc vəsaitləri və debitor borcları dövriyyə aktivləri kimi təsnifləşdirilirlər və qısamüddətli aktivlərə aid edilirlər (əgər ödəmə müddəti mühasibat balansının tərtib edilmə tarixindən bir ilədək müddətdən artıq deyildirsə). Borc vəsaitləri və debitor borcları mühasibat balansında «Debitor borcları» maddəsinin tərkibində əks etdirilmişlər.

(c) Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar

Ödəmə müddətinə qədər saxlanılmış (dayandırılmış) investisiyalar təsbit edilmiş ödəmə müddəti olan elə qeyri-törəmə maliyyə aktivləridir ki, onlarla münasibətdə ödəniş müddətinin çatmasına qədər Cəmiyyətin onları saxlamağa qəti niyyəti və imkanı vardır. Hesabat dövründə Cəmiyyətin bu kateqoriya üzrə heç bir investisiya olmamışdır.

(d) Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri

Satış üçün nəzərdə tutulmuş maliyyə aktivləri bu kateqoriyada nəzərdə tutulmamış və ya digər kateqoriyalarda təsnifləşdirilməmiş qeyri-törəmə maliyyə alətləridir. Əgər rəhbərliyin bu aktivləri mühasibat balansının tətbiq edilmə tarixindən bir ilədək müddətə satmaq niyyəti yoxdursa, onlar qeyri-dövriyyə aktivlərinə aid edilənlər və uzunmüddətli aktivlərin tərkibində əks etdirilirlər.

3.8. Ehtiyatlar

Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:

(a) Maya dəyəri

(b) (b) Xalis satış dəyəri

Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun və bitməmiş istehsalın maya dəyərinə xammal və material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Xalis satış dəyəri – adi təsərrüfat fəaliyyəti zamanı qiymətləndirilmiş mümkün satış qiyməti ilə satış üzrə xərclər arasışdakı fərq məbləğidir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir.

3.9. Alıcılar və sifarişçilərin debitor borcları

Alıcılar və sifarişçilərlə hesablaşmalar ilkin olaraq ədalətli dəyər üzrə əks etdirilir. Sonradan isə qiymətdən düşmə ehtiyatlarının (rezervlərinin) yaradılması metodu ilə amortizasiya olunmuş dəyər ilə uçota alınır. Alıcılar və sifarişçilərin debitor borcları üzrə qiymətdən düşmə ehtiyatları (rezervi) o halda yaradılır ki, elə obyektiv sübutlar mövcuddur ki, Cəmiyyət tərəfindən ilkin maliyyələşmə nəticəsində yaranmış bütün debitor borclarının yığılması mümkün deyildir və ya bütün debitor borclarının ödənilməsi mümkünsüzdür. Ehtiyatların (rezervin) məbləği aktivin balans dəyəri ilə pul vəsaitləri axınının effektiv faiz dərəcəsi nəzərə alınan fərz edilən diskontlaşdırılmış dəyəri arasındakı fərqdir. Ehtiyatların (rezervlərin) yaradılması və ya dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.10. Pul vəsaitləri və onların ekvivalentləri

Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla müəyyən nağd pul məbləğinə çevrilə bilən və dəyəri cüzi dəyişikliklərə məruz qalan maddələrdir. Pul vəsaitləri və onların ekvivalentləri maddəsində kassada olan nağd pul vəsaitləri, yolda olan pul köçürmələri, bank hesablaşma hesabları, digər tələbli bank besabları, pul vəsaitlərinin ekvivalentləri, bank overdraftları və ödənilmə müddəti üç aydan artıq olmayan digər yüksəklikvidli investisiyalar əks etdirilir. Mühasibat balansında bank overdraftları qısamüddətli öhdəliklərin tərkibində qısamüddətli faiz xərcləri yaradan öhdəliklər maddəsi üzrə əks etdirilir.

3.11. Nizamnamə kapitalı

Cəmiyyətin nizamnamə kapitalı 31 dekabr 2025-ci il tarixə 6200000,00 manatdır.

3.12. Kreditlər və borclar

Kreditlər və borclar ilkin olaraq sövdələşmənin aparılmasına çəkilən xərclər çıxılmaqla, ədalətli dəyər üzrə tanınır. Sonrakı dövrlərdə kreditlər və borclar amortizasiya olunan dəyər ilə əks etdirilir: İstənilən alınmış vəsaitlər və ödənilmiş məbləğlər arasındakı fərq kredit və borcların verilmə müddəti ərzində mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. (Effektiv faiz dərəcəsi metodu istifadə edilməklə)

Konvertasiya olunan istiqrazların öhdəliklərə aid olan hissəsinin ədalətli dəyəri konvertasiya olunmayan istiqrazlara ekvivalent bazar faiz dərəcəsi tətbiq edilməklə müəyyən olunur. Bu məbləğ konvertasiyada ləğv olunma müddətinə və istiqrazların ödəmə müddətinin çatması müddətinə qədər amortizasiya olunan öhdəliyin dəyəri kimi əks etdirilir. Alınmış qalan vəsaitlər konvertasiyaya opsion kimi mənfəət vergisi effekt çıxılmaqla kapitala əlavə edilir.

Kreditlər və borclar, Cəmiyyət tərəfindən bu öhdəliklərin ödənilmə müddətinin mühasibat balansının tərtib edilmə müddətindən ən azı bir ildən artıq olan müddətə ödəniləcəyi barədə şərtsiz hüququ olması halları istisna olmaqla, qısamüddətli öhdəliklər kimi təsnifləşdirilir.

3.13. Mənfəət vergisi

Mənfəət vergisi hazırkı maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirəsalınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapital hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanlarına ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir. Vergiyə cəlb edilən mənfəət və ya zərər, maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dərəcələrinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

3.14. Qarşıdakı xərclər və ödənişlər üzrə ehtiyatlar (rezervlər)

Ətraf mühitin bərpa olunmasına, restrukturizasiyaya və məhkəmə çəkişmələrinə ehtiyatlar (rezervlər) o zaman yaradılır ki:

–Cəmiyyət keçmiş dövrlərdə baş vermiş hadisələr nəticəsində hər hansı hüquqi öhdəliklər daşıyır və ya könüllü surətdə öz üzərinə ənənəvi öhdəliklər qəbul etmişdir;

– Ehtimallar vardır ki, bu öhdəliklərin sahmana salınması üçün pul vəsaitlərinin axını labüddür;

– Bu öhdəliklərin məbləği etibarlı surətdə hesablana bilir.

Resturukurizasiya xərcləri üzrə ehtiyatlara icarə müqavilələrinin vaxtından əvvəl ləğv edilməsinə görə cərimə sanksiyaları və işçilərə ödənilən işdən çıxma müavinətləri daxildir. Gələcək dövrlərin əməliyyat zərərləri üzrə ehtiyatlar yaradılmır.

3.15. Gəlirin tanınması

Gəlir satılmış mal, iş və xidmətlərin ədalətli dəyəri ilə (əlavə dəyər vergisi çıxılmaqla) tanınır. Satışdan gəlir aşağıdakı qaydada tanınır:

(a) Xidmətlərin göstərilməsindən gəlirlər

Xidmətlərin göstərilməsindən gəlirlər o hesabat dövrünə aid edilir ki, bu xidmətlər göstərilmişdir və xidmət göstərilməsi üzrə konkret sövdələşmənin tələbləri başa çatdırılmışdır. Konkret sövdələşmənin tələblərinin başa çatdırılması dərəcəsi faktiki göstərilmiş xidmətlərin həcminin sövdələşmə üzrə göstəriləcək xidmətlərin ümumi həcmindəki payı kimi qiymətləndirilir.

(b) Faiz gəlirləri

Faiz gəlirləri effektiv faiz dərəcəsi metodu istifadə edilməklə zaman tənasüblüyü əsasında tanınır. Debitor borcunun dəyərinin aşağı düşməsi hallarında Cəmiyyət balans dəyərini əvəzi ödənilə bilən dəyərə qədər aşağı salır. Dəyərin bu qaydada aşağı salınması, maliyyə alətlərinin effektiv faiz dərəcəsindən istifadə edilməklə, ilkin tanınma tarixinə pul vəsaitləri axınının gələcək diskontlaşdırılmış hesablamaları yolu ilə müəyyən edilir. Dəyəri aşağı salınmış faiz gəlirləri konkret şəraitdən asılı olaraq, pul vəsaitlərinin daxil olması və ya xərclərin ödənilməsi qaydasında tanınır.

(c) Dividend gəlirləri

Dividend gəlirləri o zaman tanınır ki təsisçilərin mənfəət əldə etmək hüququ müəyyən olunmuşdur.

3.16. İcarə

Mülkiyyət hüququndan irəli gələn risklərin və səmərələrin əhəmiyyətli hissəsinin icarəyə verəndə qalması hallarındakı icarə, əməliyyat icarəsi kimi təsnifləşdirilir. Əməliyyat icarəsi müqaviləsi üzrə ödənişlər bütün icarə müddəti üzrə bərabər hissələrə bölünməklə, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

3.17. Dividendlərin verilməsi

Cəmiyyətin səhmdarlarına dividendlər maliyyə hesabatlarında öhdəlik kimi o dövrdə tanınır ki, həmin dövrdə Cəmiyyətin səhmdarları tərəfindən təsdiq edilmişdir (qərar qəbul edilmişdir).

2025-ci ildə Cəmiyyət tərəfindən təsisçilərə dividendlər elan edilməmişdir.

3.18. Müqayisəli məlumatlar

Əvvəlki hesabat dövrlərində Cəmiyyət faiz gəlirlərini və dividend gəlirlərini "maliyyə gəlirləri (xərcləri) – netto" maddəsi üzrə açıqlamışdır. Rəhbərlik belə hesab edir ki, göstərilən gəlirlərin əməliyyat fəaliyyətindən mənfəətin hesabalanması bölməsinə aid olan "sair gəlirlər (xərclər) – netto" hesabına daxil edilməsi Cəmiyyətin fəaliyyətinin nəticələrini daha düzgün əks etdirir.

4. Maliyyə risklərinin idarə edilməsi

Cəmiyyətin fəaliyyəti bir sıra maliyyə risklərinə meyllidir: bazar riski (valyuta riskləri, faiz dərəcələrinin dəyişməsinin ədalətli dəyərə təsir rsiki və qiymət riski daxil olmaqla); kredit riski; likvidlik riski və faiz dərəcələrinin dəyişməsinin pul vəsaitləri axınına təsiri riski. Cəmiyyət risklərin idarə olunması üzrə proqramı, maliyyə risklərinin qabaqcadan müəyyən edilə bilinməməsi amilinə cəmləşdirilmişdir (fokusuna yığılmışdır) və Cəmiyyətin fəaliyyətinin maliyyə nəticələrinə potensial əlverişsiz təsirinin minimallaşdırılmasına yönəldilmişdir. Cəmiyyət müəyyən risklərin hedcinqləşdirilməsi üçün törəmə maliyyə alətlərindən istifadə edir.

(a) Bazar riski

(i) Valyuta riski

Cəmiyyət beynəlxalq iqtisadi əlaqələrə malikdir və ona görə də xarici valyuta kurslarının (əsasən, ABŞ dolları, avro, rus rublu və s.) dəyişməsindən valyuta risklərinə meyllidir. Gələcək kommersiya sövdələşmələri, tanınmış aktivlər və öhdəliklər, həmçinin xarici şirkətlərə netto-investisiyalara münasibətdə mübadilə kurslarının dəyişməsi riski mövcuddur.

(ii) Qiymət riski

Cəmiyyət göstərdiyi xidmətlər üzrə qiymət riskinə mübtəla deyildir. Analoji xidmətlər bazarında faktiki rəqabətin olmaması buna əsas verir.

Qiymətlər xidmət bazarında tələbatdan, göstərilən ximətlərin keyfiyyətindən və bu xidmətləri təklif edən digər şirkətlərlə rəqabətdən formalaşır və tənzimlənir.

(b) Kredit riski

Cəmiyyət əhəmiyyətli kredit risklərinə mübtəla deyildir. Törəmə alətlərlə sövdələşmələr və pul əməliyyatları yalnız yüksək ödəmə qabiliyyəti olan maliyyə institutları ilə aparılır. Cəmiyyət tərəfindən heç bir istisnaya yol vermədən bütün maliyyə institutları üçün kredit riskini məhdudlaşdıran prosedurlar işlənmişdir.

(c) Likvidlik riski

Likvidlik riskinin ehtiyatkarlıqla idarə edilməsi pul vəsaitləri və dövriyyədə olan qiymətli kağızların kifayət həcminin saxlanmasını, açılmış kredit xətləri vasitəsilə adekvat maliyyələşmə imkanlarını və ortaya çıxa biləcək disbalans hallarında operativ idarəetmə imkanlarını nəzərdə tutur.

(d) Faiz dərəcəsinin dəyişməsinin pul vəsaitləri axınına və ədalətli dəyərə təsiri riski

Cəmiyyət faiz gəliri gətirən əhəmiyyətli məbləğdə aktivlərə malik olduğundan, mənfəət və pul vəsaitlərinin əməliyyat axınları, əsasən bazar faiz dərəcələrinin dəyişməsindən asılıdır.

4.2. Törəmə maliyyə alətləri və hedcinq əməliyyatları

Törəmə maliyyə alətləri müvafiq sövdələşmələrin (kontaktların) bağlanma tarixinə ilkin balans dəyəri ilə uçota alınır: sonradan ədalətli dəyərə yenidən qiymətləndirmə tələb edilir. Bu qaydada müəyyən edilmiş gəlirlər və zərərlər maliyyə alətlərinin hedcinq aləti kimi təsnifləşdirməsindən asılıdır. Hedcinqləşdirmə məqsədləri ilə qəbul edilmiş maliyyə aktivlərinin ədalətli dəyəri on saylı Qeyddə açıqlanmışdır. Kapitalın tərkibində hedcinq ehtiyatlarının hərəkəti 16 saylı Qeyddə acıqlanmışdır.

(a) Ədalətli dəyərin hedcinqləşdirilməsi

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsi mənfəət və zərərlər haqqında hesabatda hedcinqləşmə riskinə aid olan hedcinqləşdirilən maliyyə aktivləri və öhdəliklərinin ədalətli dəyərinin dəyişməsi ilə birlikdə əks etdirilir.

(b) Pul vəsaitləri axınının hedcinqləşdirilməsi

Cəmiyyət tərəfindən pul vəsaitləri axınının hedcinqləşdirilməsi aləti kimi təsnifləşdirilməsi aləti kimi təsnifləşdirilən törəmə alətlərin ədalətli dəyərinin dəyişməsinin effektiv hissəsi kapitalın tərkibində tanınır (bu dəyişmənin effektiv olmayan hissəsi mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir).

(c) Xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu tətbiq edilməyən törəmə alətlər

Bir sıra maliyyə alətləri xüsusi hedcinqləşdirmə əməliyyatı uçotu qaydalarına aid edilmir. Hedcinqləşdirmə əməliyyatları tətbiq edilməyən maliyyə alətlərinin dəyişməsi birbaşa mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

4.3. Ədalətli dəyərin qiymətləndirilməsi

Aktiv bazarda dövriyyədə olmayan maliyyə alətlərinin (birjadan kənar maliyyə alətləri) ədalətli dəyəri müxtəlif qiymətləndirmə metodları vasitəsilə müəyyən edilir. Cəmiyyət hesabat tarixinə bazar şəraitindən asılı olaraq mövcud olan bir neçə qiymətləndirmə metodundan istifadə edir. Uzunmüddətli borcların ədalətli dəyərinin müəyyən edilməsi üçün analoji alətlər üçün birja qiymətləri və ya dilerlərin kotirovkaları tətbiq edilir. Qalan maliyyə alətlərinin ədalətli dəyərinin müəyyən edilməsi üçün hesablama pul vəsaitləri axınının diskontlaşdırılması metodu istifadə edilir. Faiz svoplarının ədalətli dəyəri pul vəsaitlərinin gələcək axınının törəmə dəyəri kimi hesablanır. Forvard valyuta sövdələşmələrinin (kontraktlarının) ədalətli dəyəri bazarda təkmül tapmış forvard valyuta kurslarından istifadə edilməklə hesablanır.

5. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli mühasibat təxminləri və fərziyyələri

Cəmiyyət növbəti maliyyə ili ərzində hesabatlarda əks etdirilən aktiv və öhdəliklərin məbləğinə təsir göstərən təxminlər və fərziyyələr irəli sürür. Həmin təxminlər və fərziyyələr müntəzəm olaraq rəhbərliyin təcrübəsinə və digər amillərə, həmçinin rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsasən təhlil edir. Uçot siyasətinin tətbiqi zamanı rəhbərlik həmçinin peşəkar mülahizələr və fərziyyələr irəli sürür. Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan təxminlərə aşağıdakılar daxildir:

5.1. Müştəri debitor borclarının dəyərsizləşməsi üzrə zərərlər

Gələcək pul vəsaitləri hərəkətinin məbləğini və müddətini təxmin edərkən istifadə edilən metodologiya və mülahizələr, təxmini və həqiqi zərərlər arasındakı hər hansı fərqi azaltmaq məqsədilə müntəzəm olaraq nəzərdən keçirilir.

5.2. Binaların yenidən qiymətləndirilməsi

Cəmiyyətin balansında 31 dekabr 2025-ci il tarixə bina olmamışdır.

5.3. Vergi qanunvericiliyi

Azərbaycan Respublikasının vergi, əmək, sosial sığorta, valyuta və gömrük qanunvericiliyi ilə nəzərdə tutulan qaydalar tətbiq edilir.

6. Yeni və ya yenidən işlənmiş standartların qəbulu və şərhi

Nəşr edilmiş, lakin Cəmiyyətin maliyyə hesabatlarının verilməsi tarixinə qədər qüvvəyə minməmiş standartlar və onlara aid şərhlər aşağıda açıqlanır. Onlar qüvvəyə mindiyi zaman Cəmiyyət bu standartları qəbul etmək niyyətindədir.

BMHS 9 Maliyyə Alətləri. BMHS verilən BMS 39-un dəyişdirilməsi üzrə BMSŞ işinin birinci mərhələsini əks etdirən və BMS 39 kimi təyin olunan maliyyə aktivinin ölçülməsi və maliyyə öhdəlikləri üçün tətbiq edilir. Standart 1 yanvar 2013-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün ilk başda təsirli oldu, lakin BMHS9-un düzəlişləri, 2011-ci ilin dekabr ayında buraxılmış BMHS 9 və Keçid Açıqlamalarının məcburi qüvvəyə minmə tarixi 1 yanvar 2015-ci il məcburi qüvvəyə minmə tarixinə köçürülüb. Sonrakı mərhələdə MBHS hedc mühasibatına və maliyyə aktivlərinin zədələrinə müracət edir. BMHS 9-un birinci mərhələsinin qəbul edilməsi Cəmiyyətin maliyyə aktivlərinin təsnifatı və ölçülməsinə təsir edəcək, lakin Cəmiyyətin maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsinə təsir etməyəcək. Bütün mərhələləri əhatə edən yekun standartlar verildiyi zaman Cəmiyyət digər mərhələlər ilə əlaqədar kəmiyyətin təsirini müəyyən edəcək.

İnvestisiya müəssisələri (BMHS 10, BMHS 12 və BMS 27 üçün düzəlişlər). Bu düzəlişlər BMHS 10 daxilində aktivin tərifini qarşılayan müəssisələr üçün istisna birləşmələr haqqında tələbləri təmin etdikdən sonra 1 yanvar 2014-cü il və ya bu tarixdən sonra başlayan dövrlər üçün təsirlidir. Istisna birləşmələr mənfəət və ya zərər vasitəsi ilə investisiya müəssisələrinin filiallarının düzgün dəyərlə hesablanmasını tələb edir. Bu dəyişikliyin Cəmiyyətə uyğun olacağı gözlənilmir, çünki Cəmiyyətdəki müəssisələrin heç birinə BMHS 9 daxilində investisiya müəssisəsi olmağa səlahiyyət verilməyəcək.

BMS 32 Maliyyə Aktivlərinin və Maliyyə Öhdəliklərinin Əvəzləşdirməsi - BMS 32-yə Düzəlişlər. Bu düzəlişlər "hal-hazırda qanuni həyata keçirilə bilən kompensasiya hüququna malikdir" ifadəsinin mənasını və əvəzləşdirmə üçün səlahiyyət qazanmaq üçün evlərin təmizlənməsinin qeyri-sinxron nizamasalma mexanizmləri aydınlaşdırır. Bunlar 1 yanvar 2014-cü ildə və ya sonra başlayan illik dövrlər üçün qüvvəyə minmişdir. Bu düzəlişlərin Cəmiyyətə uyğun olması gözlənilmir.

BMHŞK Şərhi 21 Yığımlar (BMHŞK 21). BMHŞK 21 aydınlaşdırır ki, ödənişi uyğun qanunvericiliklə müəyyən edildiyi kimi işə salan fəaliyyət baş verdikdə müəssisə yığım üçün öhdəlik tanıyır. Minimum kandara çatmaqla işə salınan yığım üçün şərh aydınlaşdırır ki, dəqiqləşdirilmiş minimum kandara çatmazdan qabaq heç bir öhdəlik gözlənilməməlidir. BMHŞK 21 1 yanvar 2014-cü il və ya sonra başlayan illik dövrlər üçün qüvvədədir. Filial BMHŞK 21-in gələcək maliyyə hesabatlarına əhəmiyyətli maliyyə təsiri göstərəcəyini gözləmir.

BMS 39 Törəmələrin Yeniliyi və Hedc Mühasibatının Davamı - BMS 39-a Düzəlişlər. Bu düzəlişlər hedcinq aləti kimi təyin edilmiş törəmə yeniliyi müəyyən kriteriyalarla qarşılaşdıqda hedc mühasibatının güzəştindən yüngüllük təmin edir. Bu düzəlişlər 1 yanvar 2014-cü il və ya

sonra başlayan illik dövrlər üçün qüvvədədir. Cari dövr ərzində Cəmiyyət öz törəmələrini yeniləməyib. Hər halda, bu düzəlişlər gələcək yeniliklər üçün nəzərə alınacaq.

2022-ci ildə MHBS-da əsas dəyişikliklər olmuşdur.Dəyişikliklər 2022-ci il yanvarın 1-dən bir sıra MHBS-lara düzəlişlər qüvvəyə minir.

MHBS 3 Biznes Birləşməsi - Konseptual Çərçivəyə yeni istinad MHBS 3 Müəssisələrin Birləşməsi Müəssisələrin birləşməsi üçün uçot tələblərini dəyişdirmədən Maliyyə Hesabatlarının Konseptual Çərçivəsinə (indi 2001-ci il əvəzinə 2018-ci il istinadı) istinadı yenilədi. Yeni arayış biznes birləşməsində aktiv və ya öhdəliyin nədən ibarət olduğunu müəyyən etməyə imkan verir. Bundan əlavə, MHBS 3 öhdəliklər və şərti öhdəliklər üçün yeni azadlığa malikdir. MHBS 3-ü tətbiq edən müəssisə 2018-ci il üzrə Maliyyə Hesabatlarının Konseptual Çərçivəsinə deyil, BMS 37 və ya BMHŞK 21 Müəyyən növ öhdəliklər üzrə ödənişlərə istinad etməlidir. Bu istisna olmadan, müəssisə müəssisələrin birləşməsi zamanı 37 №-li MUBS-a uyğun tanımayacağı bəzi öhdəlikləri tanımalı olacaq. Həmçinin, alıcıdan 37 №-li MUBS-da müəyyən edilmiş şərti aktivləri alış tarixində tanıması tələb olunmur. MUBS 16 Əsas, tikili və avadanlıqlar – İstifadədən əvvəl gəlir 16 №-li MUBS-a əsasən, aktivin ilkin dəyərinə onun çatdırılması və istifadəyə hazırlanması üçün hər hansı xərclər, o cümlədən aktivin düzgün işləməsinin yoxlanılması xərcləri daxildir.

7. Torpaq, tikili və avadanlıqlar

	Binalar	Maşın və avadanlıqlar	Nəqliyyat vasitələri	Mebel və təsərrüfat Digər inventar-ları	Digər ясас вясаитлər	Cəmi
31 dekabr 2024-cü il tarixinə ilkin dəyər və ya qiymətləndirmə		**200565.79**	**197584.73**		**108048.55**	**498199.07**
31 dekabr 2024-cü il tarixinə balans dəyəri		**200565.79**	**197584.73**	-	**108048.55**	**506199.09**
Daxilolmalar	220000.00	99916.20	134643.94	-	7626.88	**462187.02**
Xaricolmalar		(38646.17)	(51134.22)	-	-	**(89780.39)**
Amortizasiya ayırmaları	(8983.31)	(57713.51)	(56218.89)	-	(23135.09)	**(146050.80)**
Xaricolmalar üzrə yığılmış amortizasiya						
31 dekabr 2025-ci il tarixinə ilkin dəyər və ya qiymətləndirmə	220000.00	**261855.82**	**281094.45**	-	**115675.43**	**878625.70**
Yığılmış amortizasiya		(63007.61)	(110138.53)	-	(54729.51)	(227875.65)
31 dekabr 2025-ci il tarixinə balans dəyəri	**211016.69**	**204122.31**	**224875.56**	-	**92540.34**	**732554.90**

8. Qeyri-maddi aktivlər

	Proqram	Lisenziyalar	Cəmi

	məhsulları		
31 dekabr 2024-cü il tarixinə ilkin dəyəri	**(371000.84)**		**371000.84**
Yığılmış amortizasiya	**(38794.21)**		**(38794.21)**
31 dekabr 2024-cü il tarixinə balans dəyəri	**332206.66**		**332206.66**
Daxilolmalar	-	-	-
Xaricolmalar	(16761.81)	-	(16761.81)
Amortizasiya ayırmaları və ya qiymətdəndüşmə	(33220.66)	-	(33220.66)
31 dekabr 2025-ci il tarixinə ilkin dəyəri	**354239.03**	**-**	**354239.03**
Yığılmış amortizasiya	**(72014.87)**	**-**	**(72014.87)**
31 dekabr 2025-ci il tarixinə balans dəyəri	**282224.16**		**282224.16**

9. Xalis Faiz Gəlirləri	**2025**	**2024**
Cəmi faiz gəlirləri	-	-
Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz gəlirləri aşağdakılardan ibarətdir:		
Müştərilərə verilmiş kreditlər üzrə faiz	4000030.00	2767385.65
Qeyri- faiz gəlirləri cəmi	4785630.00	2104540.00
Maliyyə instutlarına verilən kreditlərdən gəlirlər		
Cəmi amortizasiya olunmuş maliyyə aktivləri üzrə gəliri	**8785660.00**	**4871925.65**
Cəmi faiz xərcləri		
Amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz i xərcləri aşağdakılardan ibarətdir:		

Borc alınmış kreditlər üzrə faiz xərcləri	(1505940.00)	(527720.00)
Digər maliyyə müəssisələrinin faiz xərcləri	(12360.00)	-
Digər faiz xərcləri	(153170.00)	-
Cəmi amortizasiya olunmuş dəyərdə qeydə alınan maliyyə aktivləri üzrə faiz xərci	**(1671470.00)**	**(527720.00)**
Komisiyon haqqı və cərimələrdən gəlirlər	-	-
Cəmi komisiyon haqqı və cərimələrdən gəlirlər	-	-
məzənnə fərqindən gəlir,zərər	(-)	(-)

10. Verilmiş avanslar üzrə debitor borcları

	2025	**2024**
Təsisçilərlə hesablaşmalar üzrə	-	-
Verilmiş avanslar	-	-
Təhtəlhesabşəxslərlə hesablaşmalar üzrə	-	-
Verilmiş avanslar	360490.00	387201.00
	360490.00	**387201.00**

11.Sair digər aktivlər

	2025	**2024**
Ödənilməkdə olan məbləğlər(milli valyutada)	405928.83	117250.00
Ödənilməkdə olan məbləğlər(xarici valyutada)	8855.48	-
Hesablanmış komisiya Gəlirləri	256355.89	
	671140.00	**117250.00**

12.Digər aktivlər

Əvvəlcədən ödənilmiş vergilər	117460.00	42691.00

Gələcək dövrün xərcləri	-	2531570.00
Kreditlər üzrə hesablanmış faizlər	520190.00	916912.00
Debitor borcları	1600.00	-
Digər aktivlər üzrə mümkün zərərin ödənilməsi üçün yaradılan xüsusi ehtiyat (çıxılır)	(154250.00)	-
Cəmi digər aktivlər	**485000.00**	**349053.00**

13. Pul vəsaitləri və onların ekvivalentləri

	2025	2024
Rezident banklardakı "nostro "müxbir hesablar milli valyutada	426922.00	298868.00
Rezident banklardakı "nostro "müxbir hesablar xarici valyutada	761.00	753.00
Banklarda yerləşdirilimiş uzunmüddətli depozitlər -xarici valyutada	1788754.00	1700000.00
Sair pul vəsaitləri ekvivalentləri	-	-
	2216437.00	**1999621.00**

Bank hesablarında pul vəsaitlərindən:

Rezident banklardakı "nostro "müxbir hesablar milli valyutada	426922.00	298868.00
Rezident banklardakı "nostro "müxbir hesablar xarici valyutada	761.00	753.00
Banklarda yerləşdirilimiş uzunmüddətli depozitlər -xarici valyutada	1788754.00	1700000.00
	2216437.00	**1999621.00**

14. Vergi və məcburi ödənişlər üzrə öhdəliklər

	2025	2024
Vergi və sair ödəmələr üzrə öhdəliklər	26789.00	-
Sosial sığorta və təminat üzrə öhtəliklər	1725.00	-
	28514.00	**-**

15. Qısamüddətli kreditor borcları

2025	2024

kreditor borcları	295230.00	-
Təxirə salınmış gəlirlər	256360.00	-
Hesablanmış faiz ödənişləri	55240.00	
Sair öhdəliklər	1286380.00	
	1893210.00	
	-	

16. İnzibati və digər əməliyyat xərcləri

	2025	**2024**
İşçi heyəti üzrə xərclər əmək haqqı müavinətlər	(1765720.00)	(1648075.33)
İcarə Haqqı	(456740.00)	(339686.62)
Digər Xərclər	(5344850.00)	(1673530.00)
Amortizasiya xərcləri	(222080.00)	(84836.93)
Sosial təminat xərcləəri	(423780.00)	(310724.47)
Əsas vəsaitlərin təmir xərclər	(45970.00)	(3440.84)
Proqram təminatlarının dəstəklənməsi üzrə xərclər	(138285.10)	-
Mükafatlar	(509889.27)	-
Göstərilimiş xidmətlər üzrə xərc	(286754.90)	-
	(9194069.27)	**(4060294.39)**
Banklardan alınmış kreditlər üzrə faiz xərcləri	(1505940.00)	(505332.76)
Digər maliyyə müəssisələrinin kreditləri üzrə faiz xərcləri	(12360.00)	-
Digər faiz xərcləri	(153170.00)	-
Cəmi faiz xərcləri	**(1671470.00)**	**(505332.76**
Mümkün zərərlərin ödənilməsi üçün ehtiyat xərcləri	(1291520.00)	-

17. Müştərilərə verilmiş kreditlər

	2025	**2024**
Müştərilərə verilmiş kreditlər aşağdakılardan ibarətdir		
Müştərilərə verilmiş kreditlər	14463180.00	4176003.00

	14463180.00	**4176003.00**

Aşağdakı cədvəldə Cəmiyyət tərəfindən müştərilərə verilmiş kreditlərin dəyəri göstərilir

	2025	**2024**
6 Zəmanətlərlə təmin edilmiş kreditlər	14463180.00	4176003.00
Cəmi müştərilərə verilmiş kreditlər	**14463180.00**	**4176003.00**
İqtisadi sahələr üzrə təhlil :	-	-
Kənd təsərrüfatı	14463180.00	4176003.00
Cəmi müştərilərə verilmiş kreditlər	**14463180.00**	**4176003.00**

31 dekabr 2025-ci il tarixinə bütün kreditlər Azərbaycan Respublikasında fəaliyyət göstərən müştərilərə verilmişdir ki,buda bir ölkə üzrə əhəmiyyətli coğrafi təmərküzləşməni əks etdirir.

31 dekabr 2025-ci il tarixinə müştərilərə verilmiş kreditlərə şərtləri yenidən razılaşdırılmış olaraq 0,00 AZN məbləğində kreditlər daxildir.

31 dekabr 2025-ci il tarixinə 30 gündən artıq gecikdirilmiş kreditlər müvafiq olaraq 842770.00 manat təşkil etmişdir.

	2025	**2024**
Müştərilərə verilmiş ümumi kreditlər-qısamüddətli	14463180.00	4176003.00
Cəmi müştərilərə verilmiş kreditlər	**14463180.00**	**4176003.00**

18. Digər borc alınmış vəsaitlər

Digər borc alınmış vəsaitlər aşağdakılardan ibarətdir:

	2025	**2024**
Beynəlxalq maliyyə instutlarından alınmış kreditlər		
Beynəlxalq inkişaf üçün maliyyə instutlarından(BİMİ)	-	-
alınmş kreditlər		
Digər maliyyə instutlarından alınmış kreditlər	161920.00	-
Mərkəzi İdarəetmə orqanlarının vəsaitləri	-	-
Banklardan alınmış kreditlər	14168280.00	4821540.00
Qiymətli kağızlar	-	-
Cəmi digər borc alınmış vəsaitlər	**14330200.00**	**4821540.00**

Cəmiyyət yuxarıda sadalanan bir sıra banklardan və maliyyə institutlarından alınmış borclarla əlaqədar müəyyən şərtlərini yerinə yetirmək öhdəliyi daşıyır. Bu şərtlərə razılaşdırılmış əmsallar,borcun kapitala nisbəti əmsalı və müxtəlif maliyyə fəaliyyəti ilə bağlı digər əmsallar daxildir.

31 dekabr 2025-ci il tarixinə müddətli borc öhdəliklərinin cəmi **14330200.00** manat təşkil etmişdir.

Müqavilələrə əsasən maliyyə şərtləri pozulduqda vaxtı çatmış borclar və ya tələb əsasında vəsaitlər üçün ehtiyat yaradılmışdır.

19. Səhmadr kapitalı

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin təsdiq edilmiş və ödənilmiş səhmdar kapitalı 6200000,00 manat olmuşdur.

31 dekabr 2025-ci il tarixinə Cəmiyyətin bitən il ərzində dividentlər Cəmiyyət tərəfindən elan edilməmişdir.

20. Mənfəət vergisi

Cəmiyyət ödəniləcək cari mənfəət vergisi,eləcə də aktiv və öhdəlikləri üzrə vergi bazalarını onun fəaliyyət göstərdiyi ölkələrin azərbaycan Respublikasının qanunvericiliyinə əsasən hesablayır və uçotda əks etdirir ki,buda MHBS-dan fərqli ola bilər.Təşkilat bəzi xərcləri vergiyə cəlb olunmadığından və bəzi gəlirləri vergi məqsədləri üçün vergidən azad olduğundan daimi vergi xərcləri ilə üzləşir

31 dekabr 2023-cü il tarixinə qüvvədə olan vergi dərəcəsinin üzləşdirilməsi aşağdakı kimi olmuşdur.

Mənfəət vergisindən əvvəl mənfəət	(3371392.10)	306305.05
20% yerli vergi dərəcəsi ilə nəzəri vergi	-	(48610.00)
Təxirə salınmış vergi xərci		-
İl üzrə mənfəət vergisi xərci:	**-**	**(48610.00)**
	-	**(48610.00)**
Cari mənfəət vergisi xərci		
Təxirə salınmış vergi mənfəəti		
Gəlirdən çıxılmayan xərclər		
Mənfəət vergisi xərci		
İl üzrə xalis mənfəət/ zərər	**(3371392.10)**	**257695.95**

21. Risklərin idarə edilməsi

Maliyyə riski faktorları

Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

Kredit riski

Cəmiyyət kredit riskinə məruz qalır ki, bu da maliyyə aləti üzrə bir tərəfin öz öhdəliklərini yerinə yetirə bilməməsi və bunun digər tərəfə maliyyə zərərinin dəyməsi ilə nəticələnməsindən yaranan riskidir.

Bazar riski

Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazarda daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

Faiz dərəcəsi riski

Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

22. Hesabat tarixindən sonra baş vermis hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir.

Behbidov.P.F

"Asel Kredit" BOKT MMC-nin

Baş direktor:

25 may 2026-cı il

Bakı, Azərbaycan Respublikası

Nağıyev.R.C

Baş mühasib: